Azərbaycan-Türkiyə diplomatik münasibətləri – 30

Bu gün zirvəsinə çatan və "Bir millət, iki dövlət" prinsipi ilə davam etdirilən Azərbaycan- Türkiyə diplomatik münasibətlərinin zəngin tarixi keçmişi vardır. 1918-ci il mayın 28-də dövlət müstəqilliyini əldə edən Azərbaycan Xalq Cümhuriyyəti ilk müqaviləsini bir həftə sonra - iyunun4-də Osmanlı dövləti ilə imzalamışdı. Bununla da Azərbaycanın müstəqilliyini ilk olaraq məhz Osmanlı dövləti tanımışdı. Həmin müqavilənin 4-cü bəndini əsas tutaraq Osmanlı hökumətindən yardım istənilmiş və köməyə gələn Qafqaz İslam Ordusu Azərbaycanın erməni-bolşevik işğalından azad olunmasında mühüm rol oynamışdı.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində iki dövlət arasında diplomatik münasibətlərdavam etdirilmişdi. 1921-ci ilin oktyabrında Azərbaycan SSR-in Türkiyədə səfirliyi açılmışdı. Daha sonra Azərbaycan SSR-in Qarsda konsulluğu, Bakıda isə Türkiyə Böyük Millət Məclisi hökumətinin diplomatik nümayəndəliyi fəaliyyət göstərmişdi. Sovet Azərbaycanının xarici siyasətində Naxçıvan məsələsi mühüm yer tuturdu. Məhz Türkiyənin yardımı ilə Moskva və Qarsdanışıqlarında, həmin danışıqların nəticəsi kimi imzalanmış müvafiq müqavilələrdə Naxçıvanın Azərbaycanın himayəsinə verilməsi təsbit edilmişdir.

Sovet İttifaqının mövcud olduğu dövrdə Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələr az da olsa qorunub saxlanılmışdı. Elm, mədəniyyət və incəsənət xadimləri qarşılıqlı olaraq səfərlər edir, əlaqələrin davam etdirilməsinə çalışırdılar.

Sovet İttifaqının dağlıması və Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpa etməsi ərəfəsində 25 may 1991-ci ildə Türkiyənin Bakıda Baş konsulluğu açılmışdı.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin Bəyannaməsinin qəbul edilməsindən sonra müstəqilliyin xarici dövlətlər tərəfindən tanınması məsələsi gündəmə gəlmişdi.

Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edəndən sonra, noyabrın 1-də ölkənin müstəqilliyinin tanınması ilə bağlı təklifini Türkiyəyə rəsmi olaraq çatdırmış və Türkiyə Respublikası Nazirlər Kabinetinin 1991-ci il noyabrın 9-da keçirilən iclasında AzərbaycanRespublikasının müstəqilliyinin tanınması haqqında qərar qəbul edilmişdi. Bununla da Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmuşdur.

1992-ci ilin yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradılmışdır. 1992-ci ilin fevral ayında Azərbaycan Respublikası və Türkiyə Respublikası xarici işlər nazirlikləri arasında əməkdaşlıq haqqında və iki dövlət arasında vizasız gediş-gəlişə dair məktub mübadiləsi haqqında sazişlər imzalanmışdır.

Həmin dövrdə Azərbaycanın Türkiyədən ilk gözləntisi qarşılıqlı şəkildə səfirliklərin açılması və Azərbaycanın müstəqilliyinin digər dövlətlər tərəfindən tanınması üçün Türkiyənin yardımçı olmasından ibarət idi.

Türkiyə Prezidenti Turqut Özalın Azərbaycana 1992-ci il 1-3 may tarixli səfəri və səfər zamanı imzalanmış "Birgə Bəyanat" strateji əməkdaşlığın təməl daşı olmuşdur. İki ölkə rəhbərləri arasında keçirilən görüşlər və "Birgə Bəyanat" qarşılıqlı əlaqələrin əsas prinsiplərini və inkişaf perspektivlərini müəyyən etdi. Hər iki dövlət qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini əsas tutaraq ardıcıl addımlar atmağa başladı. Türkiyə müstəqil dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının səylərini dəstəkləyərək, hərtərəfli əlaqələrin inkişafına genişyardım göstərməyə başladı.

1992-ci ilin avqust ayında Azərbaycanın Türkiyədə Səfirliyi, 1993-cü ilin yanvar ayında isə İstanbul şəhərində Baş konsulluğu açıldı. 12 aprel 2004-cü il tarixində isə Qars şəhərində Baş konsulluğu təsis edilmişdir. Eyni zamanda, Türkiyənin Bakıda Səfirliyi və Naxçıvan və Gəncə şəhərlərində Baş Konsulluqları fəaliyyət göstərməkdədir.

1992-ci ilin noyabr ayında kiçik və orta həcmli sənaye müəssisələrini inkişaf etdirmək sahəsində texniki əməkdaşlıq barədə, ticarət-iqtisadi əməkdaşlıq, investisiyaların təşviqi və qorunması haqqında hökumətlərarası sazişlər, Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında kredit sazişi və digər sənədlər imzalandı. Bununla da qarşılıqlı münasibətlərin hüquqi- normativ bazasının yaradılması sahəsində mühüm addımlar atıldı.

Ermənistan-Azərbaycan münaqişəsinin ilk günlərindən Türkiyə Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun haqlı tələblərini ardıcıl müdafiə etmiş, respublikamızın ərazi bütövlüyünün və suveren hüquqlarının təmin olunması üçün böyük səylər göstərmişdir. Türkiyə 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalından sonra Ermənistanla sərhədləri bağlayaraq ona qarşı sanksiya tətbiq edən yeganə region dövləti olmuş və eyni zamanda Azərbaycan Ordusunun güclənməsinə aktiv dəstək vermişdir.



Azərbaycanın digər əraziləri ilə qurudan əlaqələri kəsilən Naxçıvanın blokadadan çıxarılması və təhlükəsizliyinin qorunması baxımından Türkiyə əhəmiyyətli rol oynamışdır. Naxçıvanın iqtisadi blokadadan çıxarılmasında Türkiyə aktiv rol oynamışdır. 1992-ci il martın 22-də Naxçıvan Ali Sovetinin Sədri Heydər Əliyev Türkiyəyə səfər edərək Naxçıvana 100 milyondollar həcmində kredit ayrılması və 10 nəfər tələbənin Türkiyədə təhsil alması haqqında protokol imzalamışdır.

Müstəqilliyin ilk illərində Azərbaycanda xarici ölkələrin çox az sayda səfirliyi fəaliyyət göstərirdi.

Bəzi ölkələrin Ankaradakı səfirlikləri eyni zamanda Azərbaycana da akkreditə olunmuşdular. Bir çox ölkədə Azərbaycanı Türkiyə səfirlikləri təmsil edirdi. Hətta Azərbaycan səfirliyi açıldığı ölkədə bina təsis olunana qədər səfirlər Türkiyənin həmin ölkədəki səfirliyinin binasında yerləşmişdi. Bu səbəbdən Türkiyənin NATO-dakı daimi nümayəndələri uzun müddət həm də Azərbaycanı təmsil etmişdi.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994-cü il fevralın 8-dən 11-dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi. Ankaradaaparılan danışıqlardan sonra fevralın 9-da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi, texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında saziş, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə, siyasi məsləhətləşmələr barədə saziş, investisiyaların qarşılıqlı təşviqi və qorunması haqqında saziş və digər mühüm sənədlər imzalandı.

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"ni imzalamış xarici neft şirkətləri konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi.

Dövlət rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri iki ölkə arasındakı münasibətlərin daha da inkişafı ilə müşayiət olunurdu. 1995-ci il dekabrın 7- 9 da Türkiyə Prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Birgə Bəyanat və iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyənləşdirən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin sarsılmaz olduğunu bir daha təsdiq etdi.



İkitərəfli əlaqələrin möhkəmlənməsi və dostluq münasibətlərinin inkişafı Azərbaycan-Türkiyə əməkdaşlığının əhatə çərçivəsini genişləndirdi. 1996-cı ildə iki ölkə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı.

Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olduğun zaman 1997-ci il mayın 5-də Ankarada Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyannamə, kiçik və orta həcmli sənaye müəssisələrinin inkişafına yönəlmiş əməkdaşlıq haqqında əlavə protokol, elektroenergetika sahəsində əməkdaşlıq haqqında saziş və digər mühüm sənədlər imzalanmışdır.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzaladılar.

Eyni zamanda, "Şahdəniz" yatağından hasil olunan təbii qazın Bakı-Tbilisi-Ərzurum marşrutu üzrə Türkiyəyə nəql olunması üçün qaz boru kəmərinin də inşasını həyata keçirmək haqqında qərar verdilər.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı ildən-ilə genişlənərək, Azərbaycan ordusu üçün zabit kadrlarının hazırlanmasında, hərbi təlimlərin keçirilməsində, maddi-texniki bazanın möhkəmləndirilməsində və ordumuzun NATO standartları səviyyəsində qurulmasında mühüm rol oynamışdır.

2001-ci ilin martında Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri və səfər zamanı vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlərin imzalanması qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə əlavə şəraitin yaradılması baxımından əhəmiyyəti olmuşdur.

İki ölkə arasında əlaqələrinin inkişafında Prezident İlham Əliyevin 2004-cü il aprelin 13-15-də Türkiyəyə rəsmi səfəri mühüm rol oynadı. Səfər zamanı Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında birgə bəyanat, mülki aviasiya və mədəniyyət sahəsində əməkdaşlığa dair protokollar və s. sənədlər imzalandı.

Səfər zamanı İ.Əliyev Türkiyə Böyük Millət Məclisində çıxış edərək demişdi: "Türkiyəni özümə vətən hesab edirəm. Amma Prezident kimi bu, mənim ilk səfərimdir. Bu gün tam qətiyyətlə deyə bilərəm ki, bu səfər iki ölkə arasında olan münasibətlərin inkişafında mühüm rol oynayacaqdır".

Xəzər dənizi enerji qaynaqlarının dünya bazarlarına çıxarılmasını nəzərdə tutan layihələrinin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım olmuşdur. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dinamik şəkildə inkişafının göstəricisi olan qlobal iqtisadi layihələr reallaşdırılıb. 13 iyul 2006-cı il tarixində Aralıq dənizinin Türkiyə sahilindəki Ceyhan terminalında Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəməri işə salınıb və bununla iki ölkənin iştirak etdiyi beynəlxalq transkontinental layihə həyata keçirilib. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilib. Bu layihələrin həyata keçirilməsi Azərbaycan və Türkiyənin sosial-iqtisadi inkişafında,

regional təhlükəsizliyin möhkəmlənməsində, qarşılıqlı əlaqələlərin güclənməsində və ölkələrimizin dünya birliyinə hərtərəfli inteqrasiyasında yeni bir səhifə açmışdır.


16 avqust 2010-cu il tarixində "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə" imzalanmışdır.

30 oktyabr 2017-ci ildə Bakı şəhərində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə baş tutmuş "Yeni İpək Yolu" nəqliyyat dəhlizinin önəmli hissəsini təşkil edən Bakı-Tbili-Qars dəmir yolu layihəsi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşası davam etdirilən və XXI Əsrin layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin əsashissəsi olan Trans-Anadolu Qaz Boru Kəməri – TANAP 2018-ci ildə Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Trans-Adriatik Boru Kəməri – TAP isə 2021-ci ildən etibarən Azərbaycan qazını Avropaya nəql edir. Bu layihələrin reallaşması Türkiyə və Azərbaycan arasında səmimi dostluq və faydalı tərəfdaşlığının növbəti məhsuludur. Bu layihələr həmçinin iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirməyə xidmət edir.

30 il ərzində iki ölkə arasında beynəlxalq arenada qarşılıqlı dəstək ənənəsi hər zaman davametdirilib. Türkiyə Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyünü və Ermənistanın tarixi ərazilərimizin işğalı nəticəsində yaranmış münaqişədə Azərbaycanın ədalətli mövqeyini daim müdafiə etmişdir. Azərbaycan xalqı 2020-ci ildə Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının diplomatik və mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Bununla bağlı Prezident İlham Əliyev 9 oktyabr 2020-ci ildə "CNN International" televiziya kanalına verdiyi müsahibəsində demişdi: "Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı."

10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na əsasən iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlıq daha da gücləndirilir və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçirilir.

15 iyun 2021-ci il tarixində Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında" bəyannamə imzalamışlar.



"Şuşa Bəyannaməsi"ndə Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutduqları təsbit edilir. Tərəflərin regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişafetdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərdikləri qeyd edilir. Həmçinin Tərəflərdən hər hansı birinin onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr apararaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcəklərini, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklərlərini öhdələrinə götürmüşlər.

Ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə əsaslı təmələ sahib olan ölkələrimizin əlaqələri daha da inkişaf etdirilməkdədir. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələrin mövcud səviyyəsi təkcə bu iki qardaş dövlətin mənafeyinə xidmət etmir, həm də regional və beynəlxalq sülhə və rifaha ciddi töhfə verir.